# Prezident tapşırığı: Dövlətə, Vətənə sədaqətli insanlar önə çəkilməlidir

## DÖVLƏTİMİZİN BAŞÇISI İLHAM ƏLİYEV FAİQ QÜRBƏTOVU BİLƏSUVAR, ELMİR BAĞIROVU İSƏ SAATLI RAYON İCRA HAKİMİYYƏTLƏRİNİN BAŞÇISI VƏZİFƏLƏRİNƏ TƏYİN OLUNMALARI İLƏ ƏLAQƏDAR VİDEOFORMATDA QƏBUL EDƏRKƏN ONLARA İNSANLARLA BİR YERDƏ OLMAQ, ONLARA QAYĞI VƏ DİQQƏT GÖSTƏRMƏK, YERLƏRDƏ OLUB VƏTƏNDAŞLARI DİNLƏMƏK KİMİ VACİB TÖVSİYƏLƏRİNİ ÇATDIRIB

**"Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda sözdə yox, əməldə aparılır. Bu mübarizə xalq tərəfindən yüksək qiymətləndirilir. Mən vətəndaşlardan minlərlə məktub alıram. Onlar mənim bu addımlarımı alqışlayır və eyni zamanda, bəzi məsələlərə diqqətimi çəkir. Şadam ki, son vaxtlar ictimai nəzarət mexanizmi daha da mütəşəkkil forma alır. Mən bunu alqışlayıram. Siz də öz işinizdə insanlara arxalanmalısınız və rayonlarda ictimai nəzarət mexanizmi təkmil olmalıdır. O, sizə də öz işinizdə kömək göstərəcək. Sizin diqqətinizdə olmayan bəzi məsələlər ictimaiyyət tərəfindən sizin diqqətinizə çatdırılacaq və beləliklə, bu məsələlər öz həllini tapacaq."**



Dövlətimizin başçısı İlham Əliyev Faiq Qürbətovu Biləsuvar, Elmir Bağırovu isə Saatlı rayon icra hakimiyyətlərinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edərkən günümüzün əsas məsələləri olan məmurların təvazökarlığına və məsuliyyətinə, yerli sahibkarların ölkə iqtisadiyyatına sərmayə yatırmasına, düzgün kadr siyasətinin həyata keçirilməsinə yönəldərək bildirmişdir ki, kadr siyasəti düzgün həyata keçirilməli, rəhbərlər özlərinə yaxın olan, özlərinə sadiq saydıqları deyil, dövlətə, Vətənə sədaqətli, milli ruhda tərbiyə alan və peşəkar insanları önə çəkməlidirlər. Kadr siyasətinin başlıca prinsipləri: Vətənə, dövlətə sədaqət, peşəkarlıq, şəffaflıq, dürüstlük.

Ölkə Prezidentinin çıxışlarında daim bu məqam önə çəkilir ki, bu gün müstəqil dövlətimizin uğurlu inkişafı ilk növbədə, dövlətçiliyimizin möhkəmləndirilməsi ilə bağlıdır. Biz elə etməliyik ki, Azərbaycan bundan sonra da uğurla inkişaf etsin, müstəqilliyimiz daim möhkəmlənsin. Əlbəttə ki, istənilən sahədə kadrlar dövlətə, xalqa bağlı, vətənpərvər olmalıdırlar və onlar üçün dövlət maraqları hər şeydən üstün olmalıdır.

Ölkəmizdə iqtisadi və siyasi islahatların vəhdətliyinin qorunması yeni-yeni hədəflərin müəyyənləşdirilməsini şərtləndirir. Cənab İlham Əliyev dünya təcrübəsinə istinad edərək bu müqayisəni aparır ki, elə ölkələr var ki, onlarda iqtisadi tərəqqi yüksək səviyyədədir, amma demokratik inkişafdan danışmaq qeyri-mümkündür. Elə ölkələr də var ki, demokratiyanın inkişaf səviyyəsi qaneedicidir, amma iqtisadi tərəqqi aşağı səviyyədədir. Belə olan halda davamlı inkişafdan bəhs etmək mümkünsüzdür. Lakin Azərbaycanda bu vəhdətliyin qorunması uğurlarımızı təmin edir, beynəlxalq maliyyə qurumlarının hesabatlarında islahatçı ölkə kimi mövqeyini möhkəmləndirir.

Ölkənin idarə olunmasında əhəmiyyətli rol oynayan qanunların qəbulu və zamanın tələbinə uyğun təkmilləşdirilməsi də bu tərkibdəndir. Ulu öndər Heydər Əliyev bildirmişdir: **"Hər bir qanunun arxasında Azərbaycanda dövlət quruculuğunu təmin etmək, iqtisadi islahatları həyata keçirmək, siyasi islahatları həyata keçirmək, sosial islahatları həyata keçirmək məsələləri durur. Azərbaycanı keçmiş sosialist ictimai-siyasi, iqtisadi sistemindən yeni sistemə keçirmək prosesini biz bu illərdə apardıq və buna da nail olmuşuq. Məhz bunların nəticəsində indi Azərbaycanda demokratik, hüquqi dövlət öz fəaliyyətini uğurla həyata keçirir. Azərbaycan xalqı bunların nəticəsində öz müstəqil ölkəsində tam azadlığa çıxıbdır."**

Demokratiyanı şərtləndirən əsas amillərdən biri kimi sabitliyin və qanunun aliliyinin ölkəmizdə yüksək səviyyədə təmin olunması Azərbaycanın iqtisadi tərəqqisinə geniş yol açdı. Belə ki, ölkəmizlə əməkdaşlıqda maraqlı olan dövlətlərin sayı daha da artdı. Tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişi bugünkü uğurlarımızı şərtləndirdi. Neft gəlirlərinin idarə olunmasında şəffaflığın təmin edilməsi, ədalət prinsipinin qorunması ölkəmizin hərtərəfli inkişafına xidmət edən sosial-iqtisadi layihələrin uğurlu icrasına yol açdı. Qeyri-neft sektorunun inkişafını neft siyasətinin məntiqi davamı kimi dəyərləndirən cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən iqtisadiyyatın şaxələndirilməsinin vacibliyini önə çəkərək, bölgələrin malik olduğu potensial imkanlardan səmərəli istifadə etmək məqsədilə regional inkişaf proqramlarını təsdiqlədi və uğurlu icrası həyata keçirildi. Dövlət proqramlarında, regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafını, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsini, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasını, investisiya qoyuluşunun artmasını, yeni müəssisələrin, iş yerlərinin açılmasını və əhalinin məşğulluğunun artırılmasını, yoxsulluq səviyyəsinin azaldılmasını təmin etdi. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 4,8 faizə enib. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaradıb. Məhz möhkəm təməl dördüncü sənədin uğurla icra edilməsini stimullaşdırıb. Yeni iş yerlərinin bir hissəsi regionlarda açılan çoxsaylı istehsal, emal, sənaye, xidmət və sosial obyektlərin payına düşür. Sahibkarlığın inkişafı istehsalın artımı ilə bərabər, həm də yeni iş yerləri deməkdir. Buna görə də dövlət regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən proqramlarda bölgələrdə sahibkarlığın inkişafına xüsusi diqqət yetirir. Belə hal həm iqtisadi inkişafı, həm də əhalinin sosial müdafiəsini stimullaşdırır. Dövlətimizin başçısı İlham Əliyev qeyd olunan qəbulda da bildirmişdir ki, sahibkarlığın inkişafı ölkəmizin ümumi inkişafı ilə birbaşa bağlı olan məsələdir. İqtisadiyyatımız öz dayanıqlılığını saxlamalı, möhkəmləndirməlidir. Buna nail olmaq üçün əlbəttə ki, qeyri-neft sektoru inkişaf etməlidir. Bu inkişaf 2020-ci ilə qədər çox sürətli idi. Pandemiya ilə əlaqədar bütün ölkələrdə iqtisadi tənəzzül müşahidə olunur, o cümlədən bizdə: **"Ancaq bizdə bu rəqəm kifayət qədər aşağı səviyyədədir. İqtisadiyyat 7 ay ərzində cəmi 2,8 faiz düşübdür. İnkişaf etmiş ölkələrin bəzilərində bu rəqəm 30 faizə çatıb, Avropa məkanında 20 faizə çatır, ümumi avrozona məkanında təqribən 15 faizə yaxındır. Azərbaycanda bu rəqəmin aşağı səviyyədə olması hesab edirəm ki, bizim böyük nailiyyət kimi qiymətləndirilməlidir. Ancaq qeyri-neft sektorunda, xüsusilə sənaye istehsalı sahəsində inkişaf var və bu inkişaf 13 faizdir. Hesab edirəm ki, bu, indiki dövr üçün tarixi nailiyyətdir. Biz nəyin hesabına buna nail olmuşuq, sahibkarlığın inkişafı hesabına, verilən güzəştli kreditlərin və sahibkarların məsuliyyəti nəticəsində. Azərbaycanda artıq formalaşmış sahibkarlar sinfi ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır və siz də sahibkarlara dəstək olmalısınız."**

⇨ Davamı 5-ci səhifədə

iki sahil

# Prezident tapşırığı: Dövlətə, Vətənə sədaqətli insanlar önə çəkilməlidir

## DÖVLƏTİMİZİN BAŞÇISI İLHAM ƏLİYEV FAİQ QÜRBƏTOVU BİLƏSUVAR, ELMİR BAĞIROVU İSƏ SAATLI RAYON İCRA HAKİMİYYƏTLƏRİNİN BAŞÇISI VƏZİFƏLƏRİNƏ TƏYİN OLUNMALARI İLƏ ƏLAQƏDAR VİDEOFORMATDA QƏBUL EDƏRKƏN ONLARA İNSANLARLA BİR YERDƏ OLMAQ, ONLARA QAYĞI VƏ DİQQƏT GÖSTƏRMƏK, YERLƏRDƏ OLUB VƏTƏNDAŞLARI DİNLƏMƏK KİMİ VACİB TÖVSİYƏLƏRİNİ ÇATDIRIB

⇨ Əvvəli 4-cü səhifədə

Uğurlarımız Azərbaycanın beynəlxalq maliyyə qurumlarının, reytinq agentliklərinin hesabatlarında da liderliyinə yol açır. İnkişaf modeli dünyaya nümunə göstərilən Azərbaycana bu gün hansı tərəfdən baxsaq təkmilləşməni, yeniləşməni görərik. Dünyanı bürüyən koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinin gücləndirildiyi zamanda Azərbaycanın nümayiş etdirdiyi model dünya dövlətləri tərəfindən təqdir olunur. Ümumdünya Səhiyyə Təşkilatı ilk gündən Azərbaycanın atdığı addımları fonunda pandemiyadan az itki ilə çıxacağını bildirmişdir. Göründüyü kimi, koronavirusla mübarizənin ilkin mərhələsində Azərbaycan öz uğurlu nəticələri ilə diqqətdə oldu. Məhz malik olduğu təcrübəyə əsaslanaraq dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü ilə koronavirusla mübarizədə birliyə, həmrəyliyə mesaj olaraq Türk Şurasının, Qoşulmama Hərəkatının videoformatda Zirvə görüşləri keçirildi. Qlobal problemin həllinin birlikdən, həmrəylikdən keçdiyi əsaslı şəkildə diqqətə çatdırıldı.

Əvvəldə də qeyd etdiyimiz kimi, idarəetmə sistemində təkmilləşmə, kadr hazırlığı, dövlətimizin gəncləşmə siyasəti yeni-yeni hədəflərin gerçəkləşməsini təmin edir. Kadrlarla yanaşı, strukturların da yenilənməsi, təkmilləşməsi Administrasiyanın, həm də cəmiyyətin bütün zümrələri ilə Prezident arasında etibarlı, səmimi, effektiv körpü kimi fəaliyyət göstərəcəyinə əminlik yaratdı. Prezident Administrasiyasında yeni yaradılan şöbələr ümumilikdə ölkənin hərtərəfli inkişafına, təkmilləşməyə xidmət edir. Cənab İlham Əliyev 2020-ci ilin də dərin islahatlar ili kimi tarixə yazılacağına əminliyini ifadə edir.

Hər zaman qeyd edildiyi kimi, zaman islahatların sürətini, dərinliyini, səmərəliliyini təmin etmək, ölkənin inkişafı, xalqın rifahının yüksəldilməsi istiqamətində qarşıya qoyulmuş vəzifələrin vaxtında icrasına nail olmaq üçün başlıca faktorlardan biridir. Bu baxımdan hakimiyyətin hər üç qolunda - icra, qanunvericilik və məhkəmə-hüquq sistemində həyata keçirilən təkmilləşmələr həm Azərbaycanın bugünkü inkişaf səviyyəsinə, həm də müasir dövrün çağırışları və qarşıda duran vəzifələrin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsinə adekvat olmalıdır.

Uğurların davamlılığında məmur-vətəndaş münasibətləri əhəmiyyətli rol oynayır. Qeyd olunduğu kimi, şəffaflığı, məmurların öz fəaliyyətlərində vətəndaş məmnunluğunu əsas hədəf kimi müəyyənləşdirməsi həm respublikada ümumi uğurun təminatıdır, həm də sabitliyin güclənməsinə xidmət edən vacib amillərdən biridir.

Əvvəldə Azərbaycanın bu və ya digər sahələrdə qazandığı uğurlara diqqət yetirməyimiz səbəbsiz deyil. Prezident atdığı addımları ilə hər bir vətəndaşının yanında olduğunu, ölkəsinin tərəqqisinə, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə çalışdığını nümayiş etdirir. Daim öz xalqının yanında olmaq, onun çətinliklərinə, problemlərinə həssaslıqla yanaşıb onların operativ həlli istiqamətində əsas tədbirlər görmək dövlətimizin başçısı İlham Əliyevin iş üslubuna çevrilib. Dövlətimizin başçısı həmişə çıxışlarında ölkəmizin uğurlu inkişafı üçün vətəndaş-məmur münasibətlərinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayır. Prezident daim qeyd edir ki, məmurlar xalqın xidmətçisi olduqlarını unutmamalıdırlar: **"Xalqın birinci xidmətçisi Prezident olmalıdır, çünki xalq bizə inanır, bizə bu missiyanı aparmağı həvalə edib, tapşırıb. Biz bütün məmurlar da bu yüksək etimadı doğrultmalıyıq. Məmurlar, dövlət qurumlarının nümayəndələri xalqla bir yerdə olmalıdırlar, onların qayğıları ilə yaşamalıdırlar, kobudluğa, yekəxanalığa yol verilməməlidir".**

Bu sahədə əldə edilmiş uğurlar - dövlət qulluqçularının şəffaf fəaliyyəti və vətəndaş məmnunluğunun artırılması ilə yanaşı, geniş əhali qruplarını narazı salmağa yönəlmiş neqativ halların hələ də təkrarlanması faktları da müşahidə olunmuşdur. Bu cür əməllərə son qoyulması tələbi ilə ən yüksək səviyyədə edilmiş açıq çağırışlara və xəbərdarlıqlara məhəl qoymayan, ifşa olunmuş həmkarlarının aqibətindən nəticə çıxarmayan vəzifəli şəxslər barəsində qanunvericiliyə uyğun cinayət-hüquqi tədbirlərin görülməsi zəruri olmuşdur. Kadr islahatları nəticəsində işi təkmilləşdirilməklə peşəkarlıq səviyyəsi daha da yüksəldilmiş Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən bir sıra rayonların icra hakimiyyəti başçıları, habelə bir sıra şəhər-qəsəbə icra nümayəndələrinin cinayət məsuliyyətinə cəlb olunaraq həbs edilməsi təmin olunmuşdur. Etimadı doğrultmayan məmurların bundan sonra da cəzalandırılacağına daim çağırış edən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, hər bir icra başçısını mən vəzifəyə təyin edərkən, onu qəbul edərkən ona bir neçə əsas istiqaməti göstərirəm: inkişaf, quruculuq, səmərəli iş, təvazökarlıq və insanlara xidmət!

Cənab İlham Əliyev sözügedən qəbulda yeni təyinatlara bu tövsiyələrini çatdırmışdır: **"Siz, eyni zamanda, öz davranışınızla insanların hörmətini qazanmalısınız. Təvazökar olmalısınız, həm işdə, həm məişətdə, həm özünüz, həm yaxın qohumlarınız. İnsanları qıcıqlandıra biləcək addımlar atmamalısınız. Özünüzü hamıdan yuxarıda hiss etməməlisiniz. Bəzi hallarda bəzi xırda səviyyəli məmurlar özlərini elə aparırlar ki, sanki bütün dünya bunlara borcludur. Özlərini ağa kimi, xan kimi aparırlar, insanlara yuxarıdan aşağı baxırlar. Mən dəfələrlə demişəm ki, Prezident başda olmaqla, bütün dövlət məmurları xalqın xidmətçisidir. Məhz buna görə biz bu vəzifədəyik. Buna görə xalq mənə etibar edib və mən təyin etdiyim bütün kadrlardan bunu tələb edirəm."**

Təbii ki, dövlətinin daha güclü, qüdrətli olmasını, xalqının daha yüksək rifahını istəyən məmur daim öz işinə məsuliyyətlə yanaşacaq, şəxsi deyil, dövlət maraqlarından çıxış edəcək. Bu amil isə vətəndaş-məmur münasibətlərini müsbət istiqamətdə inkişaf etdirməklə yanaşı, hazırda həyata keçirilən siyasətin ana xəttini təşkil edən vətəndaş məsuliyyətinin artırılmasını şərtləndirir.

**Yeganə Əliyeva,**
***"İki sahil"***